# Turizm perspektivləri

## Qax

**Son illər respublikamızda turizm potensialının beynəlxalq aləmdə tanınması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi, turizm sahəsində orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi sahəsində mühüm işlər görülmüşdür.**

Qax respublikamızın zəngin yeraltı-yerüstü, su sərvətlərinə, mineral xammal ehtiyatlarına, əlverişli iqlim şəraitinə malik rayonlarındandır. Qaxın mülayim və saf iqlimi, zəngin mineral bulaqları, gözəl təbii mənzərələri, düzənlik və dağ meşələri burada ilboyu fəaliyyət göstərən istirahət və turizm mərkəzlərinin yaradılması və turizmin inkişafı üçün çox əlverişlidir. Qax Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nəzir Omarovun bildirdiyinə görə, Qaxda turizmin bir neçə növü inkişaf edib. Onlardan kənd yaşıl turizmi, müalicə turizmi, istirahət turizmi daha geniş yayılmışdır. Qaxda mövsümi ovçuluq turizminin, atçılıq turizminin, dağ turizminin, qış turizminin və digər turizm növlərinin yaradılması üçün münbit şərait var. Əgər turizm inkişaf etdirilərsə, rayon üçün çox gəlirli sahəyə çevrilə bilər.

Qax turizmin inkişafı üçün geniş imkanlara malik flora və faunası ilə yanaşı, qədim yaşayış məskənlərindən olub, onun tarixi abidələri mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, turistlərin əsas maraq obyekti getdikləri ölkənin tarixi, məişəti, adət-ənənələri, gəzməli və görməli yerləridir. Abidələr də bu sırada önəmli yerlərdə durur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş siyahıya əsasən Qaxda 68 tarix və mədəniyyət abidəsi qeydiyyata götürülmüşdür. Onlardan 2-si dünya əhəmiyyətli, 18-i ölkə əhəmiyyətli, 48-i isə yerli əhəmiyyətlidir. Abidələrin 48-i memarlıq, 18-i arxeoloji, 2-si monumental-xatirə abidələridir. Respublikada mövcud tarix və mədəniyyət abidələrinin yenidən siyahıya alınması ilə bağlı qərara müvafiq olaraq rayonda aşkar edilmiş 35 memarlıq, 35 arxeoloji abidə haqqında məlumatlar hazırlanaraq şəkilləri ilə birlikdə Mədəniyyət və Turizm Nazirliyinin müvafiq şöbəsinə təqdim edilmişdir. İlisu kəndində yerləşən "Sumuq" qalası, "Kürmük" məbədi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təmir edilmiş, Qum kəndindəki qədim alban məbədinin konservasiyası isə ABŞ Konqresinin qrant layihəsi çərçivəsində həyata keçirilmişdir. Qaxbaş kəndində mövcud "Həsənxan" qalasının əsaslı bərpası və konservasiyası ilə bağlı ilkin işlərə başlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Şəki-Zaqatala sektorunun mütəxəssisləri tərəfindən e.ə. IV-III minilliklərə aid olan Sarıca-Minbərək arxeoloji abidəsində tədqiqat işləri aparılmışdır. Burada 200-dən çox kurqan var. Belə bir arxeoloji zona gələcəkdə turizmin inkişafı üçün çox əlverişli, milli-mənəvi dəyərlərimizin, tariximizin təbliği istiqamətində əvəzsiz rola malik ola bilər. Ona görə də Sarıca-Minbərək arxeoloji abidə zonasında qoruq yaradılması təklifi ilə rayon icra hakimiyyəti tərəfindən Mədəniyyət və Turizm Nazirliyinə müraciət olunmuş, həmin ərazidə yerləşən abidələri əks etdirən xəritə təqdim edilmişdir. Rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nəzir Omarov:

- Qax rayonu özünəməxsus mətbəxi ilə seçilir. Ətdən qaxacın hazırlanması, qurudulmuş ətdən "sürhüllü" adlı xörəyin hazırlanması yalnız Qax rayonuna məxsusdur. Ətin qurudulması və "sürhüllü"nün bişirilməsi dağ kəndləri üçün daha xarakterikdir. Toyuqlu xəngəl, lobyalı, qozlu aş Qax əhalisinin ən sevimli yeməklərindəndir. Qoz və fındıqdan xüsusi şirniyyat, xörəklər də hazırlanır. Rayona gəlmiş hər bir turistə belə ləziz yeməklər təklif olunur. Qax rayonu kurort resursları cəhətdən zəngindir. Bol mineral su ehtiyatlarının mövcudluğu rayonda iqlim-baneoloji kurort zonalarının salınmasını zəruri edir. İlisu və Sarıbaş kəndləri yaxınlığındakı, eləcə də Hamam çayı boyunca yerin üzünə çıxan termal bulaqlar ta qədimdən xalq təbabətində yel xəstəliyinə qarşı istifadə olunsa da, bu bulaqların suyu boş yerə axıb gedir. Hamam çayı sahilində Oğlanbulaq, Qızbulaq və Hamam adlı hovuzlar pərakəndə halda gələn yüzlərlə insana şəfa bəxş edir. Respublikamızın hər yerində olduğu kimi, Qaxda da turist xidməti obyektlərində işləyəcək kadrlara böyük ehtiyac var.

Son dövrlər Azərbaycanda turizmin inkişafına xidmət edən sahələrə, maddi və mədəni irsimizə diqqət güclənmişdir. Bu baxımdan Qaxın da tezliklə öz turizm potensialını göstərmək imkanına malik olacağı şübhəsizdir.

● T.NƏZƏRLİ



